# Çağırsa ellər gedərəm davaya

## “ALLAH İKİNİZİN DƏ BƏLASINI VERSİN - SƏNİN DƏ, HİTLERİN DƏ...”




“- Ana, atamızı unutmuşuq...
- Atanız bizi unudub. Cəbiş, baları yetim qoymaq istəyirsən?”

“- Sən burda neyniyirsən?
- Ay rəhmətliyin oğlu, adam burda neyniyər? Aç qapını, bombalar töküldü başıma”.

“- Pulun var sənin?
- Sənin yox, sizin.
- Yaxşı, pulun var sizin?”

“Ay qız, Tanyə…”

“- Bizim uşağı görmədin?
- Uşağın olub bəyəm?
- Kül başuva, doğan vaxtımdı? Tanyəni deyirəm, əmanətdü, əmanət.”

“Xoşun gəlir? Gözləri yaşıldu?”

“Yəni ayda bir dəfə mənim arvadımla bazara getməyə ixtiyarım yoxdu?”

Bu yerdə, ümumiyyətlə, yazı boyu filmin adını çəkməsəm belə oxucu artıq sitatlardan bildi söhbət hansı filmdən gedir.

1969-cu ilin filmidir. 60-70-ci illər Azərbaycan ədəbiyyatının intibah dövrü olub. Həmin dövrdə kinoda, teatrda, rəssamlıqda, musiqidə, ümumiyyətlə, mədəniyyətin bütün sahələrində ən gözəl əsərlər, ən peşəkar sənətkarlar meydana gəlib. Sevdiyimiz “Şərikli çörək” də o illərin filmidir. “Bizim Cəbiş müəllim” də.

### "Müharibənin 1001-ci gecəsi", yoxsa “Bizim Cəbiş müəllim”

Film Maqsud İbrahimbəyovun "Müharibənin 1001-ci gecəsi" ssenarisi əsasında çəkilib. Hərbi kinopovestdəki hadisələr II Dünya müharibəsi illərində Bakıda cərəyan edir. Burada müharibə illərində qələbə naminə hər cür maddi çətinliklərə dözüb, ailəsini halal zəhmətlə dolandırmağa çalışan, vətənin azadlığını hər şeydən yüksək tutan sadə adamların mənəvi ucalığından söhbət açılır.

Böyük Vətən müharibəsində Azərbaycan neftinin nə dərəcədə böyük rol oynaması haqqında fikirlər ilk dəfə olaraq "Bizim Cəbiş müəllim" filmində Nəcəfov obrazının dili ilə söylənilib. Doğrudan da, bu filmdə rejissor Həsən Seyidbəyli filmin ssenari müəllifi Maqsud İbrahimbəyov çox cəsarətli addım atıblar. Nəcəfov obrazının dili ilə rusların xoşuna gəlməyən, daim nəzarətlərində saxladığı faktları aşkar ifadə ediblər.

Böyük Vətən müharibəsində Sovetlər tərəfindən iştirak edən hər 1000 tankdan 700-nü, hər 1000 təyyarədən 700-nü yanacaqla Azərbaycan təmin edib. Bu fakt ilk dəfə "Bizim Cəbiş müəllim" filmində aşkara çıxarıldı… Filmin çəkilişi başa çatdıqdan sonra Moskvaya göndərdilər. Həmişə olduğu kimi bu dəfə də Moskva filmin bir neçə epizodu ilə yanaşı, Nəcəfov obrazının dili ilə deyilən faktların çıxarılmasına göstəriş verir. Həsən Seyidbəyli gərgin mübahisədən sonra istədiyinə nail olur.

### Həsən Seyidbəyli Makedonu təsadüfən tapmışdı

Rejissor Makedon rolunun ifaçısı Aqil Ağacanovla bulvarda təsadüfən nərd oynayırmış. Qarşısındakının rejissor olduğunu bilən Aqil onunla mərcə girir. Əgər rejissor uduzsa, onu kinoya çəkəcək. Razılaşırlar. Nərddə uduzduqdan sonra Həsən Seyidbəyli sözünü tutaraq onu Makedon roluna sınağa çağırır. Aqil Ağacanov sınaqdan keçəndən sonra rejissor onu çağırıb deyir ki, səni zatən Makedon rolu üçün gözüm tutduğuna görə səninlə nərd oynamağa başladım. Gəldiyimiz mərc isə səndən çox mənim mənafeyimə xidmət edirdi.

### “Çağırsa ellər gedərəm davaya” barədə həqiqət

“Bizim Cəbiş müəllim”ə dəfələrlə baxmış tamaşaçıların əksəri bu fikirdədir ki, “Çağırsa ellər gedərəm davaya” da Əliağa Vahidindir. Amma adı titrlərə düşməyən meyxana müəllifi Molla Məhəmməddir.

Filmdə məhəllə uşaqlarının (Namiq, Makedon və s.) dediyi meyxananı səsləndirən də şairin özüdür.

Bəs 73,5 dəqiqəlik “Bizim Cəbiş müəllim”ə Molla Məhəmmədin meyxanası necə daxil edilib?

Molla Məhəmməd – 1950-ci ildə Maştağa kəndində doğulmuş Məmmədqulu Əhmədovdur. “Molla Məhəmməd” təxəllüsünü ona oturub- durduğu, yaşından böyük kişilər veriblər. Məmmədquluda görüb-götürmək, eşitdiyini-oxuduğunu beş dəqiqədə qulağına sırğa etmək bacarığını duyanlar təxəllüs verməkdə yanılmayıblar. Bədahətən şeir demək (bədiyyə), əsasən də qəzəl yazmaq istedadı ilə Molla Məhəmməd tez bir zamanda kənddə məşhurlaşıb.

Onu Nəsibə Zeynalovanın oğlu Cahangirlə yaxından tanışlığı filmə gətirib çıxardır. Bağ qonşusu idilər. Günlərin bir günü Cahangir uşaqlıq dostu Molla Məhəmmədin yazdığı “Çağırsa ellər, gedərəm davaya” meyxanasını anasına göstərir. Öz növbəsində, o da filmində müharibə illərinin canlı ab-havasını yaratmağa çalışan Həsən Seyidbəyliyə. Meyxana kinorejissorun elə xoşuna gəlir ki, onun səsləndirilməsi də müəllifin özünə, yəni Molla Məhəmmədə həvalə edilir.

### Bizim Süleyman Ələsgərov

Bizim iki Süleyman Ələsgərovumuz olub. Biri görkəmli bəstəkar, o biri aktyor. Cəbiş müəllim obrazının ifaçısı aktyor Süleyman Ələsgərovdur. İxtisasca həkim olmalı idi, çünki Tibb İnstitutunun üçüncü kursunda oxuyanda getdiyi teatr dərnəyindən Gənc Tamaşaçılar Teatrının aktyor ştatına müsabiqə yolu ilə işə götürülüb. Sənətə bağlandığından institutu atıb. Ömür boyu Gənc Tamaşaçılar Teatrında işləyib. “Hacı Qəmbər” tamaşasında Hacı Qəmbər obrazı gözlərim qarşısındadır, çünki yaşıma görə gördüyüm həmin tamaşa olub. 34 filmə çəkilib. Cəbiş müəllim obrazı onun vizit kartı sayılır. Deyilənə görə aktyor xasiyyətcə obraza çox bənzəyirmiş. 83 yaşına, yəni ömrünün sonuna qədər səhnədə olub. Ölümündən az əvvəl qrim güzgüsünü gənc aktyor Elşən Rüstəmova həvalə edib. 1989-cu ildə dünyasını dəyişib. Bu filmdəki roluna görə xalq artisti 1970-ci ildə Minskdə IV Ümumittifaq kinofestivalında diploma layiq görülüb.

Cəbişin arvadı

Fikir vermisiniz, filmdə obrazın adı belə də gedir, öz adı yoxdur-yalnız Cəbişin arvadıdır. Mentalitetin göstəricisidir.Şəfiqə Məmmədova bu obrazı əvəzsiz ifa edib. Yer qoymayıb ki, deyəsən: başqa kimsə daha yaxşı ifa edərdi.

Tanya rolunu rusiyalı aktrisa Svetlana Morşininanın ifa edib, amma səsi Amalya Pənahovanın səsidir.

***Ramilə Qurbanlı***

# Aqil Abbas özəl telekanalları bağlamağa çağrı

## “AZƏRBAYCANDAKI ÖZƏL TELEVİZİYA KANALLARI BU MİLLƏTƏ NƏYİ AŞILAYIR BƏLLİ DEYİL”

**“AZƏRBAYCANDAKI** özəl televiziya kanalları bu millətə nəyi aşılayır bəlli deyil”. Bunu Milli Məclisin deputatı Aqil Abbas deyib. O deyib ki, bu gün özəl kanallar əxlaqsızlığı yayır: “Yaxşı ki, AzTv, İTV və Mədəniyyət kanalı var. Adamlar nəyəsə baxa bilir. Bu gün dünyada kimsə bizə baxanda deyir ki, görəsən, belə də millət var imiş?! Kim kimin başını qırxdı, kim qaynanası ilə dalaşdı, bütün ailə məsələləri açılıb tökülür. Ya da həkim məsləhətləri verilir. Bizim bunlardan başqa dərdimiz yoxdur? Hətta Qarabağ məsələsi tamam yaddan çıxıb. Gövhər xanım deyir ki, niyə uşaqları rus məktəblərinə qoyursuz? Camaat da ona görə qoyur ki, heç olmasa uşaqlar rus dilini öyrənib rus kanallarına baxa bilsin. Telekanallara senzura qoymaq məsələsi bütün dünyada var. Hətta Türkiyədə də belə hadisələr baş verir. Bir həftəliyinə, on günlüyə, bir aylığına televiziyanın efir vaxtı məhdudlaşdırılır”. A.Abbas bildirib ki, Milli Televiziya və Radio Şurasına belə bir səlahiyyət verilməlidir ki, televiziya kanalları ilə bağlı tədbirlər görsün, kanalları bağlasın. “Bütün ölkələrdə belə bir qanun var. Hesab edirəm ki, bizdə də belə bir qanun olmalıdır”.

# “Namusumla işləyib ailəmə baxıram”



**“BU** iş mənim uşaqlıq xəyalım idi. Oyuncaqlarımın əksəriyyəti yük maşını olub. Sosial şəbəkələrdə mənə yazırlar ki, sürücü oldun? Namusumla işləyib ailəmə baxıram. Amerikaya aktyor olmaq üçün yox, özümə yeni bir həyat qurmaq üçün gəlmişəm”.

“Qafqazinfo” xəbər verir ki, bu sözləri model Günay Musayevanın eks-əri, aktyor Tolqa Karel deyib. O, Türkiyə KİV-nə danışaraq Amerikada sürücü işləməsindən söhbət açıb: “Mən yük daşıma sektorunda böyümək istəyirəm. Bu sahəni öyrənmək üçün işə başlamışam. Sürücü olmaq üçün 14 ayrı testdən imtahan vermişəm, Fiziki və psixoloji müzakirələrdə iştirak etmişəm. Pilot qədər çətin bir vəzifədir. Evdən çox uzaq məsafələrə gedirəm. Milyon dollarlıq yüklər daşıyıram, riskdir, amma edirəm”. Qeyd edək ki, 2016-cı ildə Sarah Skotti ilə ailə quran Karelin bu nikahdan Mia adlı qızı var. O daha əvvəl azərbaycanlı model Günay Musayeva ilə ailəli olub. Onların Cihangir adlı bir oğlu var.